

■ Adil Mirseyid

### DİLƏK

pəncərəmin önündəki ağacın
tumurcuq dolu budaqlarına
qonan quşlar o qədər
gözəl məğrur özgür idi bu səhər
mən utandım insanlığımdan
iyirmi yaşım olaydı dedim
bir dəniz səyahətinə çıxaydım
və çox uzaq bir tropik limanda
yeni başdan yaşamağa başlayaydım ömrümü
mən fransız rəssamı qogen kimi
həsrət qürbət məmləkət şeirləri yazaydım
siz şair qardaşlarım bilmədiyiniz dildə
və axşamlar şərab içib öz içimdə azaydım
küçələrdən əl ayaq kəsiləndə
dənizə baxa baxa türk dilində ağlayaydım sahildə

ah quşlar buraxın gedim
buraxın məni intihar edim

### ATİLLA İLHANİN XATİRƏSİNƏ

tam da mənə görə payız axşamı
tam da mənə görə yağışlı şəhər
məndən üz döndərib şair ilhamı
tam da mənə görə kafe caz kədər

içimdə bir çocuq ölüb elə bil
hər halda heç kimə düşmən deyiləm
bura nə parisdi nə də istanbul
heç mən də atilla ilhan deyiləm

belə havları sevərdi şair
isti rom içərdi soyuq parisdə
çəkib aparardı onu bir şeir
sərsəri bir şeir dumanda sisdə

divar saatında on iki əlli
mavi çərçivədə mücərrəd rəsm
belə bir axşamda ölərəm bəlli
atilla deyincə qırılır səsim

### GECƏ QATAR UZAQ YOL

şəhərin son evləri
uzaqda qalıb indi
qatarın fit səsindən
yaz gecəsi diksindi

boylanıb aya baxdım
qatar pəncərəsindən
amma işıq gəlmirdi
göydən ay hücrəsindən

hardasa çay axırdı
hardasa it hürürdü
gözlərim oyaq idi
ruhum yuxu görürdü

könül boşla oyunu
get ölümə hazır ol
mən fatalist adamam
gecə qatar uzaq yol

### RÖYAMDA AT GÖRÜRƏM

at muraddı deyirlər
röyamda at görmüşəm
atın çiyinlərində
qoşa qanad görmüşəm

alçalar çiçəklədi
gəlib keçdi ilk bahar
yenə payız bağlarında
çatladı gülöyşə nar

qış gəlib kəsdi qapını
hücrəm sənnən isindi
o at kimin röyasına
girir bu gecə indi

bir zamanlar şaman idim
indi şeir yazıram
ay səsləsə bir gecə
son səfərə hazıram

### ÖLÜMÜ XATIRLATDI MƏNƏ NAR ÇİÇƏKLƏRİ

ürəyim sıxılır birdən
divara yaslanıram
hardasa yağış yağır
mən burda islanıram

insan bir ömür boyu
kaç kəs intihar edər
ruhu təndən ayrılar
özgə dünyaya gedər

rüzgarlarda sovrulur
yaz yağışı qoxusu
sol döşümün altında
sərsəm ölüm qorxusu

ölümü xatırlatdı
nar çiçəkləri yenə
öldüm bir rübaidə
xəyyam ağladı mənə

### SİRR

sənə bir sirr açım unutma bunu
ölümlə bitəcək bu eşqin sonu
dörd yol ayrıcında nar ağacı var
deyirlər hər dərdin bir əlacı var

dörd yol ayrıcında düşdüm ağ atdan
heç bir umacağım yoxdu həyatdan
bu dünya qürbətdi ömür bir yuxu
bir quş qanadlandı içimdə yahu

sənə bir sirr açım amma ağlama
unut məni mənə könül bağlama
sevdaların dadı çıxıb yadımdan
ulduzların adı çıxıb yadımdan

ürküdüb uçurtdun sən xəyalımı
pir ağacı duydu qərib halımı
qaranlığı yarıb keçdi göydə ay
ay işığında ayaqyalın yay

### QIZIM AYAN ÜÇÜN NAR ÇİÇƏKLƏRİ

mayın ortasında nar çiçəkləyir
içimdə dekabr qar çiçəkləyir
gözlərimdə hüzn üzümdə kölgə
belə bir axşamda öləcəm bəlkə

ağrıdan qıvrılır ürəkdə umud
bir nar çiçəyi ver bir əlçim bulud
yaramı sarıdım bir şeir yazdım
gördüyüm yuxunu xeyirə yozdum

al məni qoynuna dəniz küləyi
bir nar çiçəyidi şair ürəyi
mən başı bəlalı türk şairiyəm
hələ həyatdayam hələ diriyəm

mən hələ nəğməmi bitirməmişəm
hələ cənnətimi itirməmişəm
göy qübbəsində bir mələk uçur
qürbət mövsümündə nar çiçək açır

### EŞQ GÜNAHI

sənin gözlərində eşq günahı var
bilirəm ayrılıq izləyir bizi
haralardan əsdi bu qara rüzgar
sanki bir fəlakət gözləyir bizi

bir yol ayrıcında üz üzə durduq
qarşıda uçurum arxada boşluq
biz gül yarpağında bir yuva qurduq
sevda dediyimiz gözəl sərxoşluq

nə durmusan bir hava çal, çal aşıq
ürəyimiz parçalanır axşamlar
olum ölüm arasında qalmışıq
səsimizə hay vermədi adamlar

bu nə dərddi umud yoxdu sabaha
yandırdılar mənim isti yuvamı
dur bir ruhani çal ölürəm daha
qiyamətə saxlamışam davamı

### JANNA EBÜTERNƏ BƏNZƏYƏN QADIN HAQQINDA

gözləri yağmurlu bir qız sevirdim
janna ebüternə bənzəri vardı
cibimdə silahım ürəkdə dərdim
dünya dedikləri başıma dardı

mən bir rəssam kimi səfil sərsəri
ürəyim sərxoşdu ruhum havalı
o da janna kimi masum bir pəri
bədbəxt janna kimi sadiq vəfalı

şəklini çəkmişdim yağlı boyayla
asmışdım divardan başımın üstə
onu xatırladıq bu gecə ayla
qocaldım yaş gəldi yaşımın üstə

onunda saçına çoxdan dən düşüb
bəlkə bu halımda tanımaz məni
bizim bəxtimizə bu vətən düşüb
qərib şairlərin ögey vətəni

### BƏLİRSİZ BİR MACƏRA

rüzgarın dilində sərxoş popurri
sahil boyu ayaq yalın dolaşır
çözülməmiş qaldı şairin sirri
zaman dalğa dalğa üstümdən aşır

bir nar ağacıdı içimdə umud
dəniz göz oxşayır musiqi kimi
boş ver könül gidi dostları unut
hansı limanlara üzür ağ gəmi

bəlirsiz macəra gözləyir məni
sonunda bir liman və əzan səsi
gecələr dolunay izləyir məni
tərləyir aynada ayın nəfəsi

ah muğam qüssəsi çökür içimə
yazdığım misralar yarımçıq qalır
mən sızmadım anam qərib biçimə
sahil boyu sərxoş rüzgar fit çalır